# SƏRİŞTƏLİLİK SINAQLARI VƏ/VƏ YA SƏRİŞTƏLİLİK SINAQLARINDAN FƏRQLİ OLAN LABORATORİYALARARASI MÜQAYİSƏ PROQRAMLARI İLƏ BAĞLI SİYASƏT SƏNƏDİ

## 1. MƏQSƏD

Bu prosedurun məqsədi AzAK-a akkreditasiya olunmaq üçün müraciət etmiş və ya akkreditasiya olunmuş sınaq, kalibrləmə, tibbi sınaq laboratoriyalarının və inspeksiya orqanlarının (bundan sonra - laboratoriyalar) iştirak etməli olduqları səriştəlilik sınaqları və/və ya səriştəlilik sınaqlarından fərqli olan laboratoriyalararası müqayisə ilə bağlı şərtləri müəyyən etməkdir.

## 2. ƏHATƏ DAİRƏSİ

Bu prosedur AzAK-a akkreditasiya olunmaq üçün müraciət etmiş və ya akkreditasiya olunmuş laboratoriyaların müvafiq səriştəlilik sınaqları və/və ya səriştəlilik sınaqlarından fərqli olan laboratoriyalarararası müqayisə fəaliyyətlərini, qiymətləndirmə komissiyasının bu fəaliyyətlərlə bağlı qiymətləndirməsini və AzAK-ın bu fəaliyyətlə bağlı dəyərləndirməsini əhatə edir.

## 3. TERMİN VƏ TƏRİFLƏR

Bu prosedurda ISO/IEC 17000, ISO/IEC 17011 standartlarında, Akkreditasiya üzrə Avropa Əməkdaşlıq Təşkilatının EA-4/18 (Guidance on the Level and Frequency of Profiency Testing Participation - Səriştəlilik sınaqlarında iştirak səviyyəsi və tezliyi üzrə təlimat) sənədində, AzAK P005 prosedurunda və Azərbaycan Respublikasının qanunvericilik aktlarında qeyd olunmuş termin və təriflərdən istifadə edilmişdir.

## 4. TƏTBİQ

4.1. AzAK-ın səriştəlilik sınaqları və/və ya səriştəlilik sınaqlarından fərqli olan laboratoriyalararası müqayisə proqramları üçün siyasət və prinsipləri.

AzAK-a akkreditasiya olunmaq üçün müraciət etmiş və ya akkreditasiya olunmuş laboratoriyalar texniki səriştəliliklərini nümayiş etdirməli və bu səriştəyə nəzarət etmək üçün lazımi fəaliyyətləri həyata keçirməlidirlər. Texniki səriştəliliyin nümayiş etdirilməsinin üsullarından biri laboratoriyaların mövcud və müvafiq səriştəlilik sınaqlarında/və ya səriştəlilik sınaqlarından fərqli olan laboratoriyalararası müqayisə proqramlarında iştirak etməsi və uğurlu nəticələr əldə etməsidir. Qeyd edilməlidir ki, səriştəlilik sınaqlarından fərqli olan laboratoriyalararası müqayisə proqramlarında iştirak yalnız səriştəlilik sınaqları mövcud olmadıqda və/və ya uyğun olmadıqda nəzərdə tutulmalıdır. UQQ-nin risk

qiymətləndirilməsinin nəticələrini nəzərə alaraq, səriştəlilik sınaqlarında/və ya səriştəlilik sınaqlarından fərqli olan laboratoriyalararası müqayisə proqramlarında iştirak, əgər əlçatandırsa, uyğundursa və zəruri hesab edilirsə, ISO/IEC 17025 standartına əsasən məcburi sayılır. ISO 15189:2022 standartına əsasən səriştəlilik sınaqlarında iştirak əlçatandırsa, uyğundursa və zəruri hesab edilərsə, məcburi sayılır. İştirak yalnız laboratoriyalar üçün deyil, həm də akkreditasiya olunmuş uyğunluğun qiymətləndirilməsi fəaliyyətlərinin bir hissəsi kimi sınaq və/və ya kalibrləmə fəaliyyətini həyata keçirən digər standartlarla akkreditasiya olunmuş uyğunluğu qiymətləndirən qurumlar üçün də məqsədəuyğundur.

4.2. Səriştəlilik sınaqları və/və ya səriştəlilik sınaqlarından fərqli olan laboratoriyalararası müqayisə proqramları üçün AzAK-ın meyarları.

Səriştəlilik sınaqları və/və ya səriştəlilik sınaqlarından fərqli olan laboratoriyalararası müqayisə fəaliyyətləri laboratoriyanın səriştəsinin nümayiş etdirilməsi və fəaliyyətinin keyfiyyətinin saxlanmasında mühüm rol oynayır. Laboratoriyalar səriştəlilik sınaqları və/və ya səriştəlilik sınaqlarından fərqli olan laboratoriyalararası müqayisə fəaliyyətlərininin nəticələrindən təlim və risklərin idarə edilməsi üçün də istifadə edə bilərlər.

AzAK akkreditasiya olunmaq üçün müraciət etmiş laboratoriyalardan səriştəlilik sınaqları və/və ya səriştəlilik sınaqlarından fərqli olan laboratoriyalararası müqayisə ilə bağlı bu prosedurda göstərilmiş meyarlara uyğun fəaliyyət göstərmələrini tələb edir.

4.2.1. Akkreditasiya prosesi

Akkreditasiya olunmaq üçün AzAK-a müraciət edən laboratoriyaların səriştəlilik sınaqları və/və ya səriştəlilik sınaqlarından fərqli olan laboratoriyalararası müqayisələrdə iştirakları ilə bağlı minimum fəaliyyətləri aşağıdakı kimi olmalıdır:

- müraciətə əlavə olunan akkreditasiya sahəsi ilə əlaqədar alt sahələr müəyyən edilməli və bu alt sahələrə uyğun olaraq hazırlanmış səriştəlilik sınaqları və/və ya səriştəlilik sınaqlarından fərqli olan laboratoriyalararası müqayisə proqramlarında iştirak planı AzAK F011-01 “Səriştəlilik sınaqları və/ və ya səriştəlilik sınaqlarından fərqli olan müqayisəli ölçmələrdə iştirak siyahısı" (Əlavə 1) istifadə edilək hazırlanmalı, bu plan və planla əlaqədar həyata keçirilmiş bütün fəaliyyətlərin qeydləri AzAK-a təqdim edilməlidir.

AzAK təqdim edilmiş səriştəlilik sınaqları və/və ya səriştəlilik sınaqlarından fərqli olan laboratoriyalararası müqayisə proqramlarında iştirakla bağlı planda akkreditasiya sahəsinin tam əhatə olunduğunu nəzərdən keçirir və qiymətləndirir. Akkreditasiya barədə qərar verməmişdən əvvəl AzAK iştirak planının bütün akkreditasiya sahəsini əhatə etdiyinə və iştirakın təmin edildiyinə əmin olmalıdır. Səriştəlilik sınaqları və/və ya səriştəlilik sınaqlarından fərqli olan laboratoriyalararası müqayisə proqramlarının mövcud olmadığı və ya iştirakın mümkün olmadığı hallarda AzAK laboratoriya tərəfindən tətbiq olunan alternativ yanaşmaların əsaslandırılmasını qiymətləndirməli və bu yanaşmaların nəticələrin etibarlılığını təmin etdiyini yoxlamalıdır. AzAK və laboratoriya bu məsələni müzakirə etməli və səriştəliliyin qiymətləndirilməsi və izlənməsinin təmin edilməsi üçün müvafiq alternativ yollar barədə razılığa gəlməlidirlər. Bu hal səriştəlilik sınaqları və/və ya səriştəlilik sınaqlarından fərqli olan laboratoriyalararası müqayisə proqramlarında iştirak planının bir hissəsi kimi qəbul ediləcəkdir..

Laboratoriyaların səriştəlilik sınaqlarında eyni və oxşar ölçmə intervallarında deyil, mümkün qədər təcrübələrində mövcud olmuş ölçü aralığını əhatə edəcək şəkildə səriştəlilik sınaqlarında iştirak etməsi gözlənilir. Laboratoriyalar akkreditasiya attestatının qüvvədə olduğu müddət ərzində iştirak planında göstərdikləri səriştəlilik sınaqları və/və ya səriştəlilik sınaqlarından fərqli olan laboratoriyalararası müqayisə zamanı əldə etdikləri bütün nəticələri və uğursuz nəticələrlə bağlı həyata keçirdikləri düzəldici fəaliyyətləri, bu fəaliyyətlərlə bağlı qeydləri və yenilənmiş iştirak planlarını AzAK-a təqdim etməlidirlər.

4.2.2. Səriştəlilik sınaqları və laboratoriyalararası müqayisə proqramlarında iştirakla bağlı plan.

İştirak planı laboratoriyalara öz ehtiyaclarını təhlil etməyə, iştirak səviyyəsini və tezliyini müəyyən etməyə imkan verir. Laboratoriyalar akkreditasiya sahələrinə uyğun olan, akkreditasiya sahəsinin alt sahələrini, iştirak səviyyəsini və tezliyini özündə əks etdirən AzAK F011-01 "Səriştəlilik sınaqları və/ və ya səriştəlilik sınaqlarından fərqli olan müqayisəli ölçmələrdə iştirak siyahısı"nı səriştəliliyə təsir edən şərtlərə uyğun olaraq yeniləməlidir. Alt sahələri müəyyən etmək üçün EA-4/18 sənədindən istifadə edilməlidir. Səriştəlilik sınaqlarında və/və ya səriştəlilik sınaqlarından fərqli olan laboratoriyalararası müqayisələrdə iştirak səviyyəsi və tezliyi müəyyən edilərkən, laboratoriyanın sınaq və ya kalibrləmə fəaliyyəti ilə bağlı risk səviyyəsi də nəzərə alınmalıdır. Akkreditasiya sahəsində

bütün metodların əks etdirilməsi üçün alt sahələr müəyyən edilməli və müəyyən edilmiş alt sahələr üzrə müxtəlif parametrlərdə iştirak təmin edilməlidir. İştirak planında verilmiş nümunə növünün laboratoriyanın gündəlik fəaliyyətində daha çox istifadə edilən nümunə növü ilə uyğunluğu nəzərə alınmalıdır. Bununla bağlı aşağıdakılara diqqət edilməlidir:

4.2.2.1. personal, metod və avadanlıqlarda hər hansı dəyişiklik olarsa, iştirak planı mütəmadi olaraq nəzərdən keçirilməli və lazım gəldikdə yenilənməlidir;

4.2.2.2. səriştəlilik sınağı və/və ya səriştəlilik sınaqlarından fərqli olan laboratoriyalararası müqayisələrdə (xüsusilə təkrar uğursuz nəticələr əldə olunan hallarda) əldə edilmiş nəticələrə görə iştirak planı nəzərdən keçirilməli və zəruri hallarda yenilənməlidir.

Müəyyən edilmiş hər bir alt sahə üzrə akkreditasiya attestatının qüvvədə olduğu müddətdə ən azı bir dəfə səriştəlilik sınaqlarında iştirak təmin edilməli və uğurlu nəticələr əldə edilməlidir. Laboratoriyalar tərəfindən hazırlanmış iştirak planlarının məqsədəuyğunluğu qiymətləndirmələr zamanı AzAK-ın qiymətləndirmə komissiyası tərəfindən yoxlanmalıdır.

4.3. Nəticələrin qiymətləndirilməsi

AzAK tərəfindən təyin edilmiş qiymətləndirmə komissiyası laboratoriyaların iştirak planlarını və əldə etdikləri nəticələri yuxarıda qeyd olunan meyarlar çərçivəsində qiymətləndirir və laboratoriyanın texniki səriştəliliyi barədə nəticələr əldə edir. Qiymətləndirmə komissiyası uğursuz nəticələr əldə olunduğu hallarda həyata keçirilmiş düzəldici tədbirlərin effektivliyini yoxlamalı və zəruri hallarda əlavə düzəldici fəaliyyətlərin həyata keçirilməsini tələb etməlidir. | z, z' və zeta | ≤ 2.0 limitindən kənar qalan z, z' və zeta balları və |En| ≤ 1 limitindən kənar qalan En balları uğursuz nəticələr hesab edilir və bu hallarda laboratoriyaların düzəldici tədbirlərin görülməsi və/və ya vəziyyətin nəzarət altında olduğunu göstərməsi tələb olunur. Qiymətləndirmə komissiyası laboratoriyanın texniki səriştəliliyinə əmin olmadığı hallarda laboratoriyadan müvafiq sahədə səriştəlilik sınaqları və/və ya səriştəlilik sınaqlarından fərqli olan laboratoriyalararası müqayisə tədbirlərində iştirak etməyi tələb edə bilər.

Zəruri hallarda AzAK ona bildirilən (qiymətləndirmə zamanı olmasa da) uğursuz nəticələrlə (səriştəlilik sınaqları və və ya səriştəlilik sınaqlarından fərqli olan laboratoriyalararasımüqayisələr) bağlı laboratoriyalar tərəfindən həyata keçirilmiş

düzəldici tədbirlərin effektivliyini sahə üzrə mütəxəssisin dəstəyi ilə qiymətləndirir və lazım olduqda, laboratoriyanın akkreditasiyası barədə qərarını yeni vəziyyətə görə yeniləyə bilər. Nəticələr qiymətləndirmə planının həcminin müəyyən edilməsi (laboratoriyanın iştirak etdiyi səriştəlilik sınaqları və/və ya səriştəlilik sınaqlarından fərqli olan laboratoriyalararası müqayisə proqramlarında iştirak etdiyi metodlara münasibətdə) növbəti illik qiymətləndirmə planında dəyişikliyin edilməsi, və ya qiymətləndirmə metodlarının dəyişdirilməsi, davamlı olaraq qeyri-qənaətbəxş nəticələr əldə etdiyi halda isə akkreditasiya barədə qərar qəbulu prosesinə təsir edə bilər.

Akkreditasiya barədə qərar qəbulu prosesində laboratoriyaların səriştəlilik sınaqları və/və ya səriştəlilik sınaqlarından fərqli olan laboratoriyalararası müqayisə tədbirlərində iştirak planları, iştirakı və əldə etdikləri nəticələr təhlil edilir və qiymətləndirilir. Laboratoriyanın uğursuz nəticələri olduğu halda, laboratoriya təhlil aparmalı və səbəbləri aşkar etməli, düzəldici tədbirlər müəyyən etməli, zərurət olduğu halda səriştəlilik sınaqları və/və ya səriştəlilik sınaqlarından fərqli olan laboratoriyalararası müqayisə proqramları ilə bağlı plana dəyişiklik etməlidir.

4.4. Laboratoriyalararası müqayisələr və səriştəlilik sınaqlarının növləri

AzAK səriştəlilik sınaqları və/ və ya səriştəlilik sınaqlarından fərqli olan laboratoriyalararası müqayisə proqramlarına və ya bu proqramlarla əlaqəli məlumat bazalarına daxil olmaq üçün müxtəlif üsullara dair təlimatlar təqdim edir. Bəzi hallarda tənzimləyici orqanlar, sənaye və ya peşə ilə bağlı sektorlar, regional əməkdaşlıq təşkilatları öz sahələri ilə bağlı səriştəlilik sınaqları və və ya səriştəlilik sınaqlarından fərqli olan laboratoriyalararası müqayisə proqramlarında iştirak tələb edə bilər və ya bu proqramlarda iştirakı məcburi edə bilər. Bu hallarda lazım gələrsə, AzAK akkreditasiya olunmuş laboratoriyalara təlimat verir. AzAK laboratoriyalararası müqayisə və ya səriştəlilik sınaqlarını təşkil etmir.

Səriştəlilik sınaqları və/və ya səriştəlilik sınaqlarından fərqli olan laboratoriyalararası müqayisə proqramları müstəqil təşkilatlar və Akkreditasiya üzrə Asiya-Sakit Okean Əməkdaşlığı Təşkilatı (APAC)/Laboratoriyaların Akkreditasiyası üzrə Beynəlxalq Əməkdaşlıq Təşkilatı (ILAC) tərəfindən təşkil oluna bilər və ya laboratoriyaların öz aralarında təşkil etdikləri proqramlar şəklində ola bilər. AzAK tərəfindən tələb olunduğu halda, APAC/ILAC tərəfindən təşkil edilən səriştəlilik sınaqları/laboratoriyalararası

müqayisə proqramlarında və ya AzAK tərəfindən müəyyən edilən digər proqramlarda da iştirak məcburi hesab olunur.

AzAK aşağıdakı tələblərə cavab verən səriştəlilik sınaqları və/ və ya səriştəlilik sınaqlarından fərqli olan laboratoriyalararası müqayisə proqramlarında iştirak edən laboratoriyaların nəticələrini qəbul edir:

- ILAC MRA imzalamış akkreditasiya orqanları tərəfindən ISO/IEC 17043 standartı əsasında akkreditasiya olunmuş səriştəlilik sınaqlarının təşkili üzrə təminatçılar tərəfindən təşkil olunmuş;
- ILAC MRA imzalamamış və ya imzalamaq üçün müraciət etmiş akkreditasiya orqanları tərəfindən ISO/IEC 17043 standartı əsasında akkreditasiya olunmuş səriştəlilik sınaqlarının təşkili üzrə təminatçılar tərəfindən təşkil olunmuş;
- Laboratoriyanın səriştəsini müəyyən etmək üçün deyil, başqa məqsədlər üçün təşkil edilən laboratoriyalararası müqayisə proqramlarında iştirak (ISO/IEC 17043);
- Akkreditasiya olunmuş uyğunluğu qiymətləndirən qurumların fəaliyyətini digər laboratoriyaların nəticələri ilə müqayisə etməklə müəyyən etmək üçün ISO/IEC 17043 standartının müvafiq tələblərinə uyğun olaraq təşkil edilmiş laboratoriyalararası müqayisə proqramlarının təşkili və ya iştirak edilməsi.

Səriştəlilik sınaqları və/və ya səriştəlilik sınaqlarından fərqli olan laboratoriyalararası müqayisə sxemlərinin əlçatanlığı və məqsədəuyğunluğu üçün meyarlar müəyyən edilərkən aşağıdakılar nəzərə alınmalıdır:

Əlçatanlıq:

Səriştəlilik sınaqları aşağıdakı hallarda əlçatan sayılır, əgər:

a) səriştəlilik sınaqları səlahiyyətli səriştəlilik sınaqlarının təşkili üzrə təminatçılar tərəfindən təklif edilirsə və tələb olunan sənədlər UQQ-nin Dövlət dilində və ya UQQ tərəfindən başa düşülən dildə təqdim olunursa;

b) səriştəlilik sınaqlarının səriştəlilik sınaqlarının təşkili üzrə təminatçılar tərəfindən işlənib hazırlanması tələb edilmirsə və nəticələr UQQ-nin iştirak planında rəsmiləşdirilmiş ehtiyaclarına uyğun olaraq qısa müddət ərzində təqdim oluna bilirsə.

Məqsədəuyğunluq:

Əgər təqdim olunan fəaliyyət sahəsi akkreditasiya olunmuş UQQ-nin cari praktikası ilə oxşardırsa, səriştəlilik sınaqları və/ və ya səriştəlilik sınaqlarından fərqli olan laboratoriyalararası müqayisə proqramları texniki baxımdan məqsədəuyğun sayılır. Əgər

müəyyən sınaq və ya ölçmə texnikası üçün müntəzəm səriştəlilik sınaqları və/ və ya səriştəlilik sınaqlarından fərqli olan laboratoriyalararası müqayisə proqramları mövcud deyilsə, o zaman fəaliyyət sahəsinə bənzər və ya həmin fəaliyyətin mühüm aspektini əhatə edən səriştəlilik sınaqları və/və ya səriştəlilik sınaqlarından fərqli olan laboratoriyalararası müqayisə proqramlarının seçilməsi məqsədəuyğun ola bilər.

4.4.1. Müstəqil təşkilatlar tərəfindən təşkil edilən proqramlar

Təşkilatçı qurum tərəfindən təklif olunan səriştəlilik sınağı və/və ya səriştəlilik sınaqlarından fərqli olan laboratoriyalararası müqayisə proqramlarının ISO/IEC 17043 standartına uyğun olmasına görə iştirakçı laboratoriya məsuliyyət daşıyır. Laboratoriyalar müvafiq proqramların icrasını izləməlidirlər.

Səriştəliliik sınaq proqramları ilə bağlı məlumatların düzgünlüyünə və həyata keçirilən proqramlara görə AzAK heç bir şəkildə məsuliyyət daşımır.

Beynəlxalq səriştəlilik sınaq proqramları barədə məlumatların olduğu EPTIS - European Proficiency Testing Information System (Səriştəliliyin qiymətləndirilməsi üzrə Avropa məlumat sistemi) məlumat bazası mövcuddur. İştirakçı laboratoriyalar müvafiq məqsədə uyğun proqram seçməlidirlər.

Bundan əlavə digər milli və beynəlxalq təşkilatların bu sahədə fəaliyyəti də izlənməlidir.

4.4.2. APAC tərəfindən təşkil edilən proqramlar

Belə təşkilatlarda AzAK təşkilatçı qurum və iştirakçı laboratoriya arasında koordinasiyanı təmin edir. APAC tərəfindən AzAK-a bildirilmiş təşkilatlarla bağlı elektron poçt, telefon və ya rəsmi məktubla müvafiq laboratoriyalara məlumat verilir. İştirakla bağlı məhdudiyyət olduğu hallarda akkreditasiya olunmuş laboratoriyalara üstünlük verilir.

4.4.3. Laboratoriyaların öz aralarında təşkil etdiyi proqramlar

Bu cür müqayisə proqramlarında iştirak edənlərin sayı məhdud olduğuna görə statistik qiymətləndirmə kifayət etməyə bilər. Yuxarıda qeyd olunan proqramların mövcud olmadığı və alternativ keyfiyyətə nəzarət üsullarının tətbiqi mümkün olmadığı hallarda belə proqramlar AzAK-ın müvafiq qərarı ilə qəbul edilə bilər.

## 5. HÜQUQ VƏ MƏSULİYYƏT

AzAK-ın Laboratoriyaların akkreditasiyası şöbəsi, İnspeksiya və sertifikatlaşdırma orqanlarının akkreditasiyası şöbəsi bu prosedurun icrasına cavabdehdir.

## 6. ƏLAQƏLİ SƏNƏDLƏR

- ISO/IEC 17043 “Uyğunluğun qiymətləndirilməsi- Səriştəlilik sınaqları üçün ümumi tələblər”;
- ISO/IEC 17011 “Uyğunluğun qiymətləndirilməsi- Uyğunluğun qiymətləndirilməsi qurumlarını akkreditasiya edən orqanlara tələblər”;
- ISO/IEC 17025 “Sınaq və kalibrləmə laboratoriyalarının səlahiyyətliliyinə dair ümumi tələblər”;
- ISO/IEC 17020 “Uyğunluğun qiymətləndirilməsi- İnspeksiya həyata keçirən müxtəlif növ orqanların fəaliyyətinə dair tələblər”;
- ISO 15189 “Tibbi laboratoriyalar. Keyfiyyət və səriştəliliyə dair tələblər”;
- ILAC P9 “Səriştəlilik sınağı və/və ya səriştəlilik sınaqlarından fərqli olan laboratoriyalararası müqayisə proqramlarında iştirakla bağlı siyasət”;
- ILAC P15 “İnspeksiya orqanlarının akkreditasiyası üçün ISO/IEC 17020:2012 standartının tətbiqi”;
- EA-4/18 “Səriştəlilik sınaqlarında iştirak səviyyəsi və tezliyi üzrə təlimat;
- EA-4/21 “Laboratoriyaların akkreditasiyası prosesində kiçik laboratoriyalararası müqayisənin məqsədəuyğunluğunun qiymətləndirilməsi üçün təlimat;
- AzAK F011-01 “Səriştəlilik sınaqları və/və ya səriştəlilik sınaqlarından fərqli olan müqayisəli ölçmələrdə iştirak siyahısı"

## 7. ARXİV VƏ QEYDLƏR

Bütün qeydlər AzAK P002 “Qeydlərin idarəolunması proseduru”na uyğun olaraq saxlanılır.

## 8. PROSEDURDA EDİLMİŞ DƏYİŞİKLİKLƏR BARƏDƏ QEYDLƏR

| Dəyişiklik №si | Səhifə №si | Dəyişikliyin tarixi | Dəyişiklik səbəbi |
|---|---|---|---|
| 01 | Bütün | 05.05.2025 | Prosedur ILAC-P9:01/2024 sənədinə uyğunlaşdırıldı |

| | | | |
|---|---|---|---|
| | | | |
| | | | |

Əlavə 1

**Siyahının yenilənmə tarixi**/*Date of update:*

## SƏRİŞTƏLİLİK SINAQLARI VƏ/ VƏ YA SƏRİŞTƏLİLİK SINAQLARINDAN FƏRQLİ OLAN MÜQAYİSƏLİ ÖLÇMƏLƏRDƏ İŞTİRAK SİYAHISI
*Proficiency Testing and/or Interlaboratory comparisons other than Proficiency Testing Participation List*

| **LABORATORİYANIN ADI:** *Laboratory name:* | **MÜRACİƏT FAYLININ NÖMRƏSİ:** *File Number:* |
|---|---|

| **Akkreditasiya sahəsi ilə bağlı məlumat**/*Scope Information* | | | | | **Plan** | | | **Həyata keçirilməsi ilə bağlı vəziyyət** /*Realization* | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Sıra №** | **Alt sahə** *Sub-discipline* | **Standart və ya metod barədə məlumat** *Standard or Method* | **Matris / Nümunə** *Matrix / Sample* **Kalibrlənmiş cihaz/Ölçülmüş kəmiyyət** *Measured Quantity/ Instrument or Gauge* | **Ölçülən parametr** *Measured Parameter* **Ölçmə intervalı və ya nöqtəsi** *Measurement Range or Point* | **Akkreditasiya sahəsinin təsdiqi tarixi** *Accreditation Date of Scope* | **Akkreditasiya attestatının qüvvədə olduğu müddətdə iştirak tezliyi** *Frequency of Participation within validity period of Accreditation certificate* | **Planlaşdırılmış iştirak tarixi** *Estimated Participation Date* | **SSLAM iştirak tarixi** *Participation date* | **Proqramı təqdim edən** *PT-ILC Provider* | **SSLAM İştirakçı kodu** *PT- ILC Code* | **İştirakçı sayı** *Number of Participants* | **Nəticə (z balı, $E_n$ balı və s)** */ Result* | **İzah (Məsələn: düzəldici fəaliyyət №)** */Explanations (Example: Corrective action number)* | **Qiymətləndirmə komissiyasının üzvü** */Team Member* |
| | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | | | |

**UQQ-nin məsul şəxsi**
*CAB Authorized Person:*
**Adı, soyadı**
*Name, surname*:
**İmzası:**
*Signature*

**Qiymətləndirmə komissiyasının üzvü:**
*Team member*

**Qiymətləndirilən sahə:**
*Scope*

**İmza:**
*Signature*

*Həm reallaşdırılan, həm də iştirak edilməsi planlaşdırılan SSLAM məlumatları bu formaya daxil ediləcək.*
*Fill the form for including both participated and participation planned PT/ILC information.*
Yalnız akkreditasiya ilə bağlı müraciət edilmiş sahələr üçün doldurulacaq.
Fill the form for requested accreditation fields only